

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 101 (23.012)

30 may 2018-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində iştirak edib.

Həmçinin XXV yubiley Beynəlxalq Neft və Qaz sərgisinin də açılışı olub, mərasim sərginin keçirildiyi Bakı Ekspo Mərkəzində canlı yayımlanıb.

Prezident İlham Əliyev mərasimdə nitq söyləyib.

Sonda dövlətimizin başçısı Cənub Qaz Dəhlizinin açılışını edib.

* * *

Prezident İlham Əliyev mayın 29-da ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavini Sandra Oudkirkin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurini qəbul edib.

* * *

Dövlətimizin başçısı mayın 29-da "Microsoft" şirkətinin Mərkəzi və Şərqi Avropa üzrə prezidenti Filip Roqu qəbul edib.




## Naxçıvanın sosial-iqtisadi inkişafının, infrastruktur quruculuğunun davamlılığı təmin olunub

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına hər səfəri əlamətdar hadisələrlə yadda qalır. Səfər çərçivəsində ölkə başçısı muxtar respublikada bir sıra mühüm obyektlərin açılış mərasimində iştirak edir, hökumət və ictimaiyyət nümayəndələri ilə görüşür. Cari ilin may ayının 16-da dövlət başçısının qədim diyarımıza növbəti səfərində də çox böyük əhəmiyyətə malik obyektlər açılışı oldu. Bundan başqa, Azərbaycan Prezidenti həmin gün bir sıra mühüm infrastruktur layihələrinin həyata keçirilməsinə dövlət maliyyə dəstəyinin göstərilməsi üçün bir neçə sərəncam imzalayıb. Bu sərəncamların hər biri muxtar respublikamızın gələcək inkişaf perspektivlərinə hesablanıb.***

Əvvəlcə onu qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafı, müxtəlif sahələr üzrə əldə olunmuş nailiyyətlər göz qabağındadır və ölkə başçısı ictimaiyyətlə görüşlərində bu amili xüsusilə vurğulamışdır. Son 15 il ərzində muxtar respublikanın ümumi daxili məhsulunun on dəfəyə yaxın artması dünya miqyasında rekord göstəricidir. Azərbaycan Respublikası Prezidentinin səfər çərçivəsində, demək olar ki, bütün görüşlərində Naxçıvanın uğurlu inkişafından söz açması və ötən dövrdə müxtəlif sahələrdə böyük uğurların əldə edildiyini dəfələrlə dilə gətirməsi, eyni zamanda muxtar respublikada görülən işlərə verilən ən yüksək qiymət idi. Elə həmin gün müxtəlif sahələr üzrə imzalanan sərəncamlar da mövcud inkişafın davamlılığını şərtləndirən mühüm amildir.

Ötən dövrdə muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ciddi addımlar atılmış, müxtəlif həcmli enerji istehsal edən obyektlər istifadəyə verilmişdir. Belə ki, 2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında dizel yanacağı ilə işləyən enerji turbinləri təbii qazla işləmə rejiminə keçirilmiş, ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası tikilib istismara verilmişdir. Bundan əlavə, muxtar respublikanın əlverişli iqlim şəraiti, ekoloji cəhətdən təmiz, alternativ və bərpaolunan enerji mənbələrindən istifadə nəzərə alınaraq Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası, Ordubad rayonunda Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası, Şərur rayonunda 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik stansiyaları, Babək rayonunda 22 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir. Əgər əvvəllər muxtar respublikada 1 elektrik enerjisi istehsal edən müəssisə fəaliyyət göstərirdisə, hazırda bu müəssisələrin sayı 8-ə, ümumi gücü 239,4 meqavata çatdırılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 may tarixli "Ordubad Su Elektrik Stansiyasının tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncamına görə isə Ordubad rayonunda inşa olunan 36 meqavat gücündə su elektrik stansiyasının tikintisinin davam etdirilməsinin vacibliyi nəzərə alınaraq "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərclər) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün müvafiq yarımbəndində göstərilmiş məbləğin 10 milyon manatının Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılması nəzərdə tutulmuşdur.

Digər sərəncam isə Naxçıvan Muxtar Respublikası ərazisində meliorativ tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. 5 milyon manatın ayrılmasını nəzərdə tutan həmin sərəncamda qeyd olunur ki, aqrar sahədə aparılan uğurlu islahatlar nəticəsində bir sıra strateji məhsullara tələbatın yerli istehsal hesabına təmin edilməsi, ölkənin ərzaq təhlükəsizliyində xarici bazardan asılılığın azaldılması, ixracyönümlü məhsulların istehsal həcminin artırılması istiqamətində son illərdə mühüm addımlar atılmışdır. Naxçıvan Muxtar Respublikasında mövcud potensialdan səmərəli istifadə olunmaqla görülmüş meliorativ tədbirlər nəticəsində 407 hektar sahədə su resurslarından qənaətlə istifadəyə imkan verən müasir suvarma sistemlərinin quraşdırılması başa çatdırılmışdır. Bu istiqamətdə işlərin davam etdirilməsinin vacibliyi nəzərə alınaraq yuxarıda adıçəkilən vəsait bölgüsündən muxtar respublika Nazirlər Kabinetinə 5 milyon manat maliyyə vəsaitinin ayrılması nəzərdə tutulmuşdur.

Dövlət başçısının 2018-ci il 16 may tarixli "Naxçıvan Muxtar Respublikasında Culfa-Ordubad magistral avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamında isə adıçəkilən avtomobil yolunun tikintisi üçün 30 milyon manat vəsaitin ayrılması qeyd olunmuşdur. Xatırladaq ki, bundan əvvəl də respublika Prezidentinin "Naxçıvan Muxtar Respublikasının Culfa və Kəngərli rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2011-ci il 2 sentyabr tarixli Sərəncamına əsasən Culfa rayonunda uzunluğu 57,6 kilometr olan, 20 kəndi əhatə edən Çeşməbasar-Boyəhməd avtomobil yolu, Kəngərli rayonunda uzunluğu 39,2 kilometr olan, 5 kəndi əhatə edən Naxçıvan-Sədərək magistralı – Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi avtomobil yolu, "Naxçıvan Muxtar Respublikasının Babək rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2013-cü il 5 mart tarixli Sərəncamına əsasən uzunluğu 25,6 kilometr olan, 13 yaşayış məntəqəsini birləşdirən Hacıvar-Vayxır-Sirab avtomobil yolu, "Naxçıvan Muxtar Respublikasının Babək rayonunda Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" 2014-cü il 27 avqust tarixli Sərəncamına əsasən uzunluğu 25,4 kilometr olan, 7 yaşayış məntəqəsini birləşdirən müvafiq yol yenidən qurulmuşdur. Eyni zamanda əvvəlki dövrlərdə ölkə başçısının digər sərəncamları ilə yenidən qurulmuş 87 kilometr uzunluğunda Naxçıvan-Sədərək və 32,4 kilometr uzunluğunda Naxçıvan-Culfa magistral avtomobil yolları bu gün muxtar respublikada sərnişin və yük daşımalarında böyük əhəmiyyət daşıyan mühüm layihələrdəndir. Növbəti sərəncam isə Ordubad rayonu istiqamətində nəqliyyat əlaqələrinin daha da təkmilləşdirilməsinə öz töhfəsini verəcəkdir.

Nəhayət, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 may tarixli Sərəncamı Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsini, habelə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda müəyyən olunmuş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədi daşıyır. Bu məqsədlə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 10 milyon manat ayrılıb.

Ümumilikdə, dövlət başçısının Naxçıvana növbəti səfərindən sonra eyni gündə imzalanan sərəncamlarla muxtar respublikada infrastruktur layihələrinin həyata keçirilməsi üçün 55 milyon manat vəsait ayrılıb. Ümumi gəlinən nəticə bundan ibarətdir ki, imzalanan sərəncamlar ölkə rəhbəri cənab İlham Əliyevin qədim Azərbaycan diyarı Naxçıvana göstərdiyi böyük qayğının və qazanılmış nailiyyətlərin davamlı xarakter aldığının göstəricisidir.

Səbuhi HƏSƏNOV

## Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi qeyd edilib

***Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.***



Tədbirdə Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizin tarixində oynadığı roldan danışılıb. Vurğulanıb ki, 23 ay yaşamasına baxmayaraq Xalq Cümhuriyyətinin dövründə ilk milli ordumuzun yaradılmasına nail olunub.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-mayor Fazil Ələkbərovun təbrik məktubu şəxsi heyətə çatdırılıb.

Vurğulanıb ki, dövlət müstəqilliyini və suverenliyini əldə etmək kifayət deyil, həm də onu qorumaq lazımdır. İndiki Azərbaycan dövlətinin yeritdiyi siyasət və qazanılan uğurlar müstəqilliyimizi daha da möhkəmləndirir.

Sonda Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının şəxsi heyəti Azərbaycan Xalq Cümhuriyyətindən bəhs edən sənədli filmə baxıb.

## Müşavirə keçirilib



Mayın 29-da Naxçıvan Şəhər İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikasında torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtibi istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələr mövzusunda müşavirə keçirilib. Müşavirəni Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov açıb.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sədri Müslüm Cabbarzadə çıxış edərək bildirib ki, sosial-iqtisadi problemlərin həllində, dinamik inkişafın təmin edilməsində torpaq münasibətlərinin tənzimlənməsi mühüm rol oynayır. Mülkiyyət hüquqlarının tənzimlənməsi sahəsində müvafiq dövlət siyasətinin daha da təkmilləşdirilməsi muxtar respublikamızda torpaq və əmlak münasibətlərinin inkişafını yeni mərhələyə yüksəldib. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 2 aprel tarixli "Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmanı torpaq münasibətlərinin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, torpaqların elektron uçotunun aparılması yolu ilə torpaq ehtiyatlarından daha səmərəli istifadənin təmin edilməsi üçün olduqca mühüm əhəmiyyətə malikdir. Bu fərmanla "Naxçıvan Muxtar Respublikasında torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib olunması Qaydaları" təsdiq edilib.

Diqqətə çatdırılıb ki, 2017-ci ilin mart ayından etibarən Naxçıvan şəhərində və Naxçıvan şəhərinin qəsəbə və kəndlərində planaalma işlərinə başlanılıb, 2018-ci ilin aprel ayınadək Naxçıvan şəhərinin 1-ci, 2-ci, 3-cü və 4-cü sahə inzibati ərazi dairələrində, Qaraçuq, Bulqan, Qaraxanbəyli, Tumbul, Hacıniyyət kəndlərində və Əliabad qəsəbəsində həyətyanı torpaq sahələrinin elektron taxeometr vasitəsilə planaalma işləri başa çatdırılıb. Ümumilikdə, Naxçıvan şəhəri üzrə 12392, Qaraçuq və Bulqan kəndləri üzrə 1387, Tumbul kəndi üzrə 592, Hacıniyyət kəndi üzrə 306, Qaraxanbəyli kəndi üzrə 994, Əliabad qəsəbəsi üzrə 970 daşınmaz əmlak obyekti plana alınıb.

Qeyd olunub ki, torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması nəticəsində muxtar respublikanın torpaq fondunun təyinatı, istifadə növü, kəmiyyət və keyfiyyət göstəriciləri üzrə dəqiq və müfəssəl kadastr uçotu təmin olunacaqdır.

Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin Torpaq məsələləri şöbəsinin müdiri İntizar Həziyev, komitənin əməkdaşı Tural Cəfərov torpaqlardan qanunsuz istifadə hallarının aradan qaldırılması və mühafizəsi ilə bağlı danışıblar.

Çıxış edənlər iştirakçıların suallarını cavablandırıblar.

Xəbərlər şöbəsi

***Bahar fəsillərin ən gözəlidir. Təbiətin nazlı qızı bahar Naxçıvanı yenə də al-əlvan rənglərə bürüyüb, yaşayış məntəqələrimizə ecazkar çalarlar qatıb. Belə yaşayış məntəqələrimizdən biri də Babək rayonunun Güznüt kəndidir. May ayının günəşli günlərinin birində bizim də yolumuz buraya düşdü. Elə ilk təssüratımız əkin sahələrində insanların çalışmasından, axarlı-baxarlı həyətlərdən, geniş və abad küçələrdən, müasir inzibati binalardan yarandı.***

*Müasirləşən kəndlərimiz*

# Bir bahar günü Güznütdə



Bu yaşayış məntəqəsi haqqında ilk olaraq onu qeyd edək ki, Naxçıvan dialektində "güznüt" sözü "payız əkini üçün ayrılan yer" mənasını bildirir. AMEA-nın müxbir üzvü, mərhum dilçi-alim Adil Bağırovun "Naxçıvan oykonimləri" kitabında kəndin tarixi haqqında yazılır ki, bu yaşayış yeri 1727-ci ildə "Güznüd məzrəsi" (Əlincə nahiyəsi) adı ilə qeydə alınıb. Babək rayonunun qədim kəndlərindən sayılan Güznütün hazırda 1800-ə yaxın sakini var. Onların əsas məşğuliyyəti əkinçilik və heyvandarlıqdır.

Bu gün Güznüt kəndi müasir görünüşü ilə buraya yolu düşən hər kəsin diqqətini çəkir. Belə ki, son illərdə muxtar respublikada aparılan genişmiqyaslı abadlıq-quruculuq işlərindən Güznütün sakinləri də bəhrələniblər. 2014-cü ildə müasir tələblərə cavab verən kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası üçün binalar tikilib, orta məktəb binası əsaslı şəkildə yenidən qurularaq sakinlərin istifadəsinə verilib. Əhalinin gediş-gəlişinin yaxşılaşdırılması məqsədilə kənddaxili yollar genişləndirilib, asfalt örtük salınıb. Kənddəki bütün evlər mavi yanacaqla təmin edilib, fasiləsiz elektrik enerjisinin verilməsi üçün transformatorlar quraşdırılıb, yararsız elektrik dirəkləri yeniləri ilə əvəzlənib.

Güznütün ən yaşlı sakini, təqaüdçü Surxay Mustafayevin dediyinə görə, əvvəllər yaşayış məntəqəsinin əhalisi elektrik enerjisi sarıdan çox əziyyət çəkib:

– Ötən əsrin 90-cı illərinin əvvəllərində saatlarla elektrik enerjisinin verilməsini gözləyərdik. Axşamlar çıraq işığında oturar, yeməyi də közərən işıqda yeyərdik. Bu hal təkcə böyükləri deyil, uşaqları da çox narahat edirdi. Məktəbli övladlarımız dərslərini elə çıraq işığında oxuyardılar. O vaxtlar gün ərzində cəmi 4-5 saat işıq yanardı. İstismarı başa çatmış transformatorlar, yararsız dirəklər ucbatından bəzən günlərlə işıq üzünə həsrət qalardıq. Necə deyərlər, qışda soyuqdan əziyyət çəkirdik, yayda da istidən. O zamanlar kənd sakinlərinin əlləri torpaqdan soyumuşdu. Çünki sabaha inam qalmamışdı.

"Pis günün ömrü az olar", – deyən Surxay Mustafayev bildirdi ki, artıq həmin çətin günlər arxada qalıb. Ölkəmiz dövlət müstəqilliyi qazandıqdan sonra hər kəs kimi güznütlülərin də sabaha ümidi artdı. Torpaqların kəndliyə qaytarılmasından sonra sakinlərin hər biri öz payına düşən torpaqda əkib-becərir, gün-güzəranını yaxşılaşdırır. Övladlarımız yaxşı təhsil alırlar. İllər ötdükcə sosial rifah halımız daha da yaxşılaşır. Bir zamanlar dolanışıq ucbatından kənddən uzaqlaşanlar indi geri qayıdaraq öz yaşayışlarını qururlar. Bu gün muxtar respublikada yaradılan firavanlıq, əmin-amanlıq, asayiş hər bir kənd sakininin ürəyincədir. Kənd sakinləri adından bütün bu görülən işlərə görə minnətdarlıq edirəm.

Güznütdə kimdən kənd məktəbinin əvvəlki vəziyyətini soraq alsan, uçuq-sökük tikilini, köhnə avadanlıqları, kömür sobalarını, qırıq, sellofanla örtülmüş pəncərələri yada salar. Bir sözlə, bu mənzərələr ozamankı kənd məktəblərinin acınacaqlı vəziyyəti idi. Ancaq 1995-ci ildən sonra qurucu insanların təhsilə doğma və həssas münasibəti, gələcək nəslə qayğısı sayəsində bu mənzərə tamamilə dəyişdi. Bu münasibətdən Güznüt kənd tam orta məktəbi də öz payını aldı. İndi bu təhsil ocağı rayonun qabaqcıl məktəbləri sırasındadır. Bu öncüllüyü əldə etmək imkanını isə təhsil müəssisəsinə dövlətimiz bəxş edib.

Güznüt kənd tam orta məktəbi ilə tanışlıq zamanı öyrəndik ki, təhsil ocağı 1979-cu ildə 8 illik məktəb kimi fəaliyyətə başlayıb. Ötən dövr ərzində məktəb binasında bir neçə dəfə təmir-bərpa işləri həyata keçirilib. 2014-cü ildə isə əsaslı şəkildə yenidən qurularaq müəllim və şagirdlərin istifadəsinə verilib. Təhsil müəssisəsində müasir tədris şəraitinin yaradılması təkcə müəllim və şagirdlərin deyil, valideynlərin də böyük razılığı ilə qarşılanıb. Sakinlər yaxşı bilirlər ki, artıq bütün çətinliklər arxada qalıb, indi onların övladları heç bir əziyyət çəkmirlər, çünki dövlətin hər cür qayğısı ilə əhatə olunublar.

Məktəbin direktoru Nəsirulla Babayev dedi ki, 324 şagird yerlik olan bu təhsil ocağında hazırda 3-ü elektron lövhəli olmaqla, 18 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, kompüter otağı, kitabxana, idman zalı, hərbi kabinə, şahmat sinfi və bufet var. Burada 258 şagirdin təlim-tərbiyəsi ilə 46 müəllim məşğul olur. Məktəb-valideyn münasibətlərinin düzgün qurulması nəticəsində şagirdlər tədris prosesində heç bir çətinliklə üzləşmir, keçilən dərsləri daha yaxşı qavrayırlar. Təhsil ocağının kompüter otağında internetə çıxışı olan 19 kompüter quraşdırılıb. Elektron dərsliklərlə təminat və elektron lövhəli siniflərin istifadəyə verilməsi dərslərin virtual tədrisinə şərait yaradıb. Məktəbdə interaktiv dərslərə qoşulmaq üçün yaradılan imkan nəticəsində muxtar respublikanın digər təhsil ocaqları ilə tədris mübadiləsi aparılır, eləcə də muzeylərlə geniş əlaqələr qurulur.

Məktəbin kitabxana fondunda 3036 bədii ədəbiyyat və 2489 dərslik olmaqla, ümumilikdə, 5 min 525 kitab vardır. Şagirdlərin kitabxanada oxunması zəruri olan kitablardan ibarət guşəyə maraq göstərdiklərini gördük. Öyrəndik ki, kitabxanada oxuculara həmin bədii ədəbiyyat nümunələrinin əhəmiyyəti aşılanır, həmin kitabların müzakirələri təşkil olunur. Şahmat otağında şagirdlərin bu idman növünün sirlərinə yiyələnmələri üçün bütün imkanlar vardır. Məktəblilərin vətənpərvərlik ruhunda tərbiyəsinə və hərbi bilikləri dərindən mənimsəməsinə də diqqət yetirilir. Gənclərin çağırışaqədərki hazırlığı fənni vasitəsilə şagirdlər hərbin ilkin sirlərini öyrənirlər. Geniş idman zalında müxtəlif idman növləri üzrə dərslərin tədrisi və şagirdlərin fiziki hazırlıqlarının artırılması üçün hər cür şərait mövcuddur.

Təhsil ocağında yeni təlim metodlarından geniş istifadə edilir, fənn kurikulumlarının tətbiqinə böyük önəm verilir, şagirdlər arasında viktorinalar, müsabiqələr və bilik yarışları keçirilir. Bütün bunlar onlarda sərbəst düşünə bilmək, axtarışlar aparmaq, müəyyən qənaətlərə gəlməklə qərarlar qəbul etmək bacarıqları formalaşdırır. Eyni zamanda müəllimlərə də imkan verir ki, məktəblilərin bilik səviyyəsini müəyyən edə bilsinlər. Məktəbdə, həmçinin məktəbəhazırlıq qrupu da fəaliyyət göstərir ki, burada 5 yaşlı uşaqlar məktəb təliminə hazırlanır, onlarda ətraf aləmlə bağlı ilkin anlayışlar formalaşdırılır və qarşılıqlı ünsiyyət qurmaq bacarığı aşılanır.

Güznütdə milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz qorunaraq yaşadılır. Müasir üslubda inşa olunan kənd məscidində İslam dininə uyğun ayinləri yerinə yetirmək üçün hər cür şərait vardır. Bundan başqa, kənddə kişi və qadın mərasim zallarının tikilərək istifadəyə verilməsi sakinlərin yas mərasimlərini əziyyət çəkmədən rahat şəkildə keçirmələrinə imkan verir.

Münbit torpaqların və əlverişli su mənbələrinin olması güznütlülərin əkin-biçinlə və heyvandarlıqla məşğulluğuna şərait yaradıb. Bu ilin ötən dövründə kənddə əkilən sahələrin miqyası keçən ilin müvafiq dövrünə nisbətən daha çoxdur. Belə ki, bu ilin yaz əkinləri zamanı sakinlər 7 hektarda arpa, 5 hektarda yonca, 20 hektardan artıq ərazidə noxud, 20 hektarda bostan, 3 hektarda tərəvəz, 3 hektarda qarğıdalı və yarım hektar ərazidə isə sarımsaq əkini aparıblar.

Yaz aylarında daha baxımlı və cəlbedici görünən Güznüt kəndinin seyrinə çıxdıqda yolboyu gözoxşayan taxıl zəmiləri, güllü-çiçəkli bağçalar bizi valeh etdi. Bahar fəslində bütün kəndlərimizdə olduğu kimi burada da hər kəsin başı əkin işlərinə qarışıb. Biz də elə torpaq adamları ilə əkin sahəsinin kənarında söhbət etdik. 8 hektar ərazidə noxud əkmiş Şükür Əliyev dedi ki, yaz gələn kimi bütün ailə üzvləri ilə birgə icarəyə götürdüyü torpağı əkib-becərirlər. Dövlətimiz tərəfindən hər il təsərrüfat sahibinə əkilən sahənin həcminə görə subsidiyalar verilir. Yaradılan imkanlardan bəhrələnən fermer deyir ki, Vayxır, Bənəniyar və Güznüt göllərinin imkanları hesabına su sarıdan heç bir problemlə qarşılaşmır. Digər tərəfdən, noxud bitkisi çox su sevmədiyi üçün becərilməsində az zəhmət çəkilir. Bu bitkinin bir üstünlüyü də ondadır ki, o, əkilən torpaqları qüvvətləndirir və bir növ gübrə rolunu oynayır. Təsərrüfat sahibinin dediyinə görə, ötən il noxuddan istədiyi məhsuldarlığı əldə etdiyi üçün bu il daha çox əkin aparıb.

Kənd təsərrüfatının inkişafı istiqamətində muxtar respublikamızda həyata keçirilən dövlət proqramları Güznüt kəndində bu sahə ilə məşğul olan fermerlərə stimul olub. Kənd sakini Vəli Məmmədov uzun müddətdir ki, bu gəlirli sahə ilə məşğul olur, muxtar respublikanın ərzaq təhlükəsizliyinə öz töhfəsini verməyə çalışır. Onun dediklərindən:

– Bu işə başlamazdan öncə, təcrübəli fermerlərdən məsləhət aldım. Onlar dedilər ki, heyvandarlıq böyük zəhmət tələb edən sahədir. Əgər bu sahədə uğur qazanmaq istəyirsənsə, hər çətinliyə qatlaşmalısan. İşdən bərk yapışsan, həm yaxşı gəlir əldə edər, həm də necə deyərlər, təbii məhsullarla qidalanmaqla sağlam olarsan. Atalarımız "Cəfa çəkməyən səfa görməz" deyimini hədər yerə işlətməyiblər. Elə bu düşüncəylə mən də öz təsərrüfatımı yaratdım və şükürlər olsun ki, xeyrini də görürəm. Uzun müddət bu işlə məşğul olduğum üçün artıq işin incəliklərini də yaxşı bilirəm. Hazırda 20 baş iribuynuzlu, 200 baş xırdabuynuzlu heyvan bəsləyirəm. Kənddə baytarlıq xidməti də yüksək səviyyədə qurulub. Heyvanların sağlam bəslənməsi üçün mütəmadi olaraq profilaktik tədbirlər həyata keçirilir. Göstərilən xidmətlər sayəsində mal-qara arasında xəstəliklər minimuma endirilib. Təbii otlaq sahələrinin çox olması, yem sarıdan ürəkaçan vəziyyət təsərrüfatımı genişləndirməyə imkan verir. Qış aylarında heyvanların yemlənməsində çətinlik çəkməmək üçün 20 hektara yaxın ərazini icarəyə götürüb taxıl əkirəm. Kəndimizdə əkin-biçinlə, heyvandarlıqla məşğul olanlar az deyil. İşgüzar şəraitin olması kənd sakinlərini çox sevindirir, hər kəs dövlətimizin bu qayğısını alqışlayır. Kənd adamları adından yaradılan şəraitə görə minnətdaram.

*Bəli, Güznüt kəndi baharda qaynar günlərini yaşayır. Zəhmətkeş, əməksevər kənd adamları böyük həvəslə qurub-yaradırlar. Bunlar insanların öz torpağına, yurduna bağlılığının ifadəsi, belə müasirləşən kəndlərimizin sayının gündən-günə artması isə inkişaf və tərəqqinin bariz nümunəsidir.*

**Nail ƏSGƏROV**

# Bank sektorunun dayanıqlı inkişafı cari ildə də təmin edilib



***Makroiqtisadi sabitliyin qorunması iqtisadi inkişafın əsas şərtlərindəndir. Bu sahədə həyata keçirilən işlər sırasında isə, şübhəsiz ki, iqtisadi aktivliyin artırılması məqsədilə bank sektoru tərəfindən davamlı olaraq həyata keçirilən tədbirlərin də mühüm rolu vardır. Naxçıvan Muxtar Respublikasında real sektora kredit qoyuluşunun artması və sahibkarların maliyyə resurslarına çıxış imkanlarının yaxşılaşdırılması nəticəsində bank sektorunun maliyyə dayanıqlılığı ötən dövr ərzində də uğurla təmin olunub. Verilən kreditlər ümumi iqtisadi aktivliyin artırılmasında, sahibkarlığın inkişafında, məşğulluğun təmin olunmasında mühüm rol oynayır.***

İqtisadiyyatın müxtəlif sahələrinin kreditləşdirilməsi ilə bağlı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindən aldığımız məlumata əsasən muxtar respublikada fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 1 may 2018-ci il tarixə iqtisadiyyata yönəldilən kredit qoyuluşlarının həcmi 105 milyon 354 min manata çatmış, nəticədə, qısamüddətli kredit qoyuluşunun həcmi 2 milyon 634 min manata, uzunmüddətli kredit qoyuluşu isə 102 milyon 720 min manata yaxın olmuşdur.

Aparılan təhlillər göstərir ki, cari ilin yanvar-aprel aylarının nəticələri, ümumilikdə, muxtar respublikada fəaliyyət göstərən bank və kredit təşkilatları üçün uğurlu olub. Belə ki, banklar qarşısında qoyulmuş ən mühüm vəzifələrdən biri olan iqtisadiyyata kredit qoyuluşunda müsbət dinamika qorunub saxlanılıb. Cari ilin ilk 4 ayı ərzində Naxçıvan Muxtar Respublikasında verilmiş kreditin ümumi məbləği 18 milyon 187 min manata çatıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə, təqribən, 2,6 dəfə çoxdur. Verilmiş kreditlərin 5 milyon 115 min manatı sənaye, 2 milyon 18 min manatı kənd təsərrüfatı, 670 min manatı tikinti, 7 milyon 11 min manatı kommunal və istehlak, 2 milyon 50 min manatı daşınmaz əmlakla əlaqədar ipoteka kreditlərinin verilməsinə və digər sahələrə yönəldilib. Kreditlərin dinamikasına gəldikdə isə ötən ilin müvafiq dövrü ilə müqayisədə verilmiş kreditlərin həcmində tikinti sahəsi üzrə, təxminən, 9,5, kənd təsərrüfatı üzrə, ümumilikdə, təxminən, 2, ayrıca heyvandarlıq sahəsi üzrə, təqribən, 2,6, arıçılıq üzrə 13,2, kartofçuluq üzrə isə 1,2 dəfə artım olub.

Cari ilin ilk 4 ayının nəticələrinə görə, muxtar respublika iqtisadiyyatına kredit qoyuluşunu həyata keçirən kredit təşkilatları arasında isə 91,4 faizlə özəl bankların üstünlük təşkil etdiyini görmək olar. Bunlardan sonrakı yerləri 6,4 faizlə dövlət bankları, 2,2 faizlə bank olmayan kredit təşkilatları tutmaqdadır.

Təhlil olunan dövrdə bankların fəaliyyətinin digər bir mühüm istiqaməti olan əmanətlərin cəlb edilməsində də xeyli irəliləyiş olduğu görünməkdədir. Belə ki, 1 may 2018-ci il tarixə muxtar respublikada fəaliyyət göstərən banklarda mövcud olan fiziki şəxslərin əmanətlərinin həcmi 6 milyon 764 min manat, o cümlədən milli valyuta ilə 5 milyon 46 min, xarici valyuta ilə isə 1 milyon 718 min manat təşkil edib. Banklara qoyulan əmanətlərin həcminin ötən ilin müvafiq dövrü ilə müqayisədə milli valyuta ilə, təqribən, 1,5 dəfə artması, xarici valyuta ilə cəlb edilən əmanətlərin həcminin isə 1,7 dəfə azalması bank-maliyyə sistemində yaranmış sabitlikdən qaynaqlanmaqla ümumi müsbət tendensiyadan xəbər verir.

Bütün bunları ümumiləşdirərək muxtar respublikada bank sektorunda dayanıqlılığın təmin olunduğunu göstərmək mümkündür. Muxtar respublikada fəaliyyət göstərən bank qurumlarının real sektoru dəstəkləmək istiqamətində verilmiş tapşırıqlara əməl etməsi, nağdsız ödənişlərə geniş yer verməklə nağd pul kütləsinin bank dövriyyəsinə cəlb edilməsi və kredit portfelinin keyfiyyətinə nəzarətin artırılması istiqamətində öz işlərini gücləndirməsi qarşıdakı dövrdə bu göstəricilərin daha da yaxşılaşdırılmasına imkan verəcəkdir.

**Əli CABBAROV**

# Eldən gedənlər...



Çətindir… Çox çətindir. Dəyərli insanlar dünyaların dəyişəndən sonra onlar haqqında söz söyləmək, ələ qələm almaq çox çətindir. Üstəgəl ki, mövzunun qəhrəmanı sənə dərs deyən dəyərli müəllimin ola. Dəyərli ziyalı, pedaqogika üzrə elmlər doktoru, professor Elbəyi Maqsudov da aramızdan ayrıldı. Bu acı xəbəri eşidəndə düz 13 il bundan əvvələ qayıtdım. Ali məktəbdə ilk dərs günü auditoriyaya daxil olan Elbəyi müəllimin mühazirəsi hamımızı ovsunladı. Doxsan dəqiqəlik mühazirədə ondan çoxlu şeir nümunələri eşitdik. Bu şeirlərin hamısı mövzunun izahı ilə bağlı idi. Dərsin sonunda: “Müəllim, bu şeirləri kim yazıb?” sualımız cavabsız qaldı. Sonradan öyrəndik ki, şeirlərin müəllifi də müəllimimizin özüdür…

Ana dili elminin qrammatikasını poetik dillə təsvir və tərənnüm edən Elbəyi müəllim elmə olan sevgisi, alim hünəri, ləyaqətli vətəndaş olması ilə müəllim və tələbələr arasında böyük hörmətə sahib idi. Dost kimi sədaqətinə, insan kimi kamilliyinə, alicənablığına, vətəndaş kimi xalqına, torpağına bağlı bir ziyalı kimi “kiçikdən böyüyə” hamı ona hörmət edirdi. Onu yaxından tanıyanlar bilirlər ki, o, dəyərli insan olduğu qədər də pak biri idi. Ona görə də onun bir pedaqoq kimi təbliğ etdiyi mənəvi keyfiyyətləri müəlliminin öz davranışında və fəaliyyətində görən tələbələrin bir insana qarşı rəğbəti birə-beş artır və onun hörmətini ucadan-uca tuturdular.

Azərbaycan dilini sevərək tədris etməyi öz həyat amalına çevirmiş Elbəyi Sadıq oğlu Maqsudov 1955-ci il fevral ayının 16-da Babək rayonunun Gərməçataq kəndində anadan olub. 1972-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının qiyabi şöbəsinə daxil olan Elbəyi müəllim kəndlərində müəllimə ehtiyac duyulduğundan oradakı məktəbdə pedaqoji fəaliyyətə başlayıb. Uzun illər müxtəlif orta məktəblərdə dərs deyən Elbəyi müəllim daha sonra fəaliyyətini Naxçıvan Dövlət Universitetində davam etdirib. Pedaqoji elmi fəaliyyətində bir çox uğurlar qazanıb. Elbəyi müəllim Azərbaycan dilinin tədrisi metodikası ilə bağlı maraqlı tədqiqatların müəllifidir. 200-dən çox tədqiqat və metodik xarakterli məqaləsi qəzetlərdə dərc edilib. O, “Ana dili dərslərində dillərarası əlaqədən istifadənin ümumi məsələləri”, “XXI əsrin öyrənciləri üçün Azərbaycan dili və ədəbiyyatdan testlər”, “Azərbaycanca-türkcə, türkcə-azərbaycanca qarşılıqlı dilçilik terminləri lüğəti”, “Dillərarası əlaqə təliminin metodikası”, “Dillərin müqayisəli tədrisi: imkanlar və vasitələr”, “Ürək bir dünyadır”, “Sözlər də insan kimidir”, “Azərbaycan dilinin Türkiyə türkcəsi ilə əlaqəli tədrisi üçün çalışmalar”, “Təmsillər”, “Poetik türkçərələr”, “Azərbaycan dilinin tədqiqi və tədrisi məsələləri”, “Poetik-praktik Azərbaycan dili” və sair elmi-metodik, bədii əsərlərin müəllifidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 mart tarixli Sərəncamına əsasən “Poetik-praktik Azərbaycan dili” dərs vəsaitinə görə Elbəyi müəllim Naxçıvan Muxtar Respublika mükafatına layiq görülüb. Həmin dərs vəsaiti bu gün dövlət dilinin tətbiqi baxımından poetik dillə yazılmış ilk fundamental əsər kimi məktəblilər, abituriyentlər, müəllimlər və xaricdə yaşayan həmvətənlərimiz üçün əvəzedilməz mənbədir. Akademik İsa Həbibbəyli kitab haqqında fikirlərini belə ifadə edib: *“Poetik-praktik Azərbaycan dili” kitabını Azərbaycan cəmiyyətinə, dünya azərbaycanlılarına yüksək səviyyədə təqdim etmək olar. Bu, böyük intellektual düşüncə ilə ciddi elmi düşüncənin vəhdətindən yaranmış mükəmməl bir əsərdir. Bunu təkcə yaxşı Azərbaycan dili müəllimi yaza bilməz, bunu təkcə yaxşı şair də yaza bilməz. Hər ikisini mükəmməl bilən və içində dil, Vətən, Azərbaycan sevgisi olan bir adam yaza bilər. Bu da Elbəyi müəllimdir”.*

Bəli, Elbəyi müəllim Azərbaycan dilinə çox böyük sevgi bəsləyirdi. 2005-ci ilin dekabr ayında dəyərli müəllimimdən aldığım müsahibədə Azərbaycan dilini ilahi qüdrətli, dost məhəbbətli bir varlıq adlandırmışdı. “Mənim ana dilim – Azərbaycan dilim Azərbaycan adlı məmləkətimin, dünyalar qədər sevdiyim anamın isti nəfəsi, həzin, şirin nəğməsi, uşaqlıq çağlarında başımız üstündə, beşiyimiz yanında oxunan bayatı, könüloxşayan titrək, kövrək səsidir. Dil Vətəndən uzaqlarda da bizi yaşadan, bizim varlığımızı təsdiq edən, heç bir sərhəd tanımayaraq ürəklərdə, diləklərdə gəzən azad bir vətəndir”, – deyərək dilimizə sevgisini belə ifadə etmişdi.

Elbəyi Maqsudov əmək fəaliyyətində təkcə mühüm tədqiqat və elmi işləri ilə deyil, həm də yetişdirdiyi yüzlərlə gənc alim və ziyalıların müəllimi kimi də həmişə xatırlanacaq. Deyirlər ki, insana bir ömür bağışlanır. Ancaq bu ömrü elə yaşamaq lazımdır ki, dönüb arxaya baxanda peşman olmayasan. Elbəyi müəllim məhz belə bir ömür yaşadı. Müəllimlik bütün peşələrin fövqündə dayanan müqəddəs, çox şərəfli bir peşədir, Elbəyi müəllim də bu peşəni sağlığında çiyinlərində şərəflə daşıdı. Özünə sağlığında qəlblərdə abidə ucaldan Elbəyi müəllim dəyərli bir ziyalı kimi ürəklərdə həmişə yaşayacaqdır.

**Sara ƏZİMOVA**
*jurnalist*

# Növbəti kitab təqdimatı keçirilib

***Naxçıvan Dövlət Universiteti Elmi kitabxanasında universitetin tərbiyə işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədovun “Erməni kilsəsi və onun Rusiyanın Cənubi Qafqaz siyasətindəki yeri” adlı kitabının təqdimatı keçirilib.***



Təqdimatı giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov kitabın elmi və ictimai əhəmiyyətini qeyd edərək erməni kilsəsi, onun spesifik cəhətləri, strukturu, bugünkü erməni cəmiyyətində və erməni icmalarında oynadığı roldan danışıb. Rektor tutarlı faktlarla tarixi həqiqətləri üzə çıxardığına görə müəllifi təbrik edib və ona gələcək elmi fəaliyyətində uğurlar arzulayıb.

Hüquq fənləri kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Elman Cəfərli qeyd edib ki, 4 fəsildən ibarət olan kitabın I fəslində erməni kilsəsinin tarixboyu etdiyi saxtakarlıqlar öz əksini tapıb. Kitabın II fəslində Cənubi Qafqazın Rusiya imperiyası tərəfindən işğal edilib müstəmləkəyə çevrilməsində erməni kilsəsinin oynadığı rol, “Erməni kilsəsi işğaldan sonra” adlanan III fəsildə isə qondarma erməni dövlətinin yaradılmasına nail olmaq siyasətinin iç üzü tarixi faktlarla öz əksini tapıb.

Elman Cəfərli vurğulayıb ki, müəllif “Erməni kilsəsi ən yeni dövrdə” adlandırdığı IV fəsildə oxucuları XX əsrin 70-ci illərindən etibarən kilsənin himayədarlığı və maliyyə dəstəyi ilə Yaxın Şərqdə və Qərb ölkələrində çoxsaylı erməni terror təşkilatlarının iyrənc əməlləri haqda məlumatlandırıb.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qafqaz tarixi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Emin Şıxəliyev bildirib ki, yeni nəşrdə erməni kilsəsinin erməni şovinizmində, separatçılığında oynadığı rola istinad edib.

Tədbirdə Beynəlxalq münasibətlər kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev, Ümumi tarix kafedrasının müəllimi Arzu Abdullayev çıxış edərək Cənubi Qafqazda baş verən dramatik hadisələrin, regionda xarici güclər arasında səngiməyən qarşıdurmanın səbəbinin erməni kilsəsi və erməni dövlətçiliyi olduğunu vurğulayıb, bu siyasətin ifşasına xidmət edən yeni nəşrin əhəmiyyətini qeyd ediblər.

Universitetin son illərdə qazandığı nailiyyətlər təhsilimizə göstərilən yüksək diqqət və qayğının bəhrəsidir, – deyən müəllif tədbirin sonunda universitet mühitində yaradıcı insanların elmi-pedaqoji fəaliyyəti üçün göstərilən dövlət dəstəyinə görə minnətdarlıq edib.

**Səadət ƏLİYEVA**

***Kəngərli Rayon İcra Hakimiyyəti və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Kəngərli Rayon Mədəniyyət Evində tədbir keçirilib.***

# Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə tədbir



Tədbirdə Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini Hacıraddin Mehbalıyev çıxış edərək bildirib ki, muxtar respublikada uşaqların sağlam yaşamaq, tərbiyə və təhsil almaq, asudə vaxtlarını səmərəli keçirmək hüquqları diqqət mərkəzində saxlanılır. Məktəbəqədər təhsil müəssisələrində körpələrimizin erkən yaş dövründən intellektual, fiziki inkişafını, istedad və qabiliyyətini üzə çıxarmaq, sağlamlıqlarını qorumaq üçün hərtərəfli şərait yaradılır. Muxtar respublikanın hər yerində olduğu kimi, Kəngərli rayonunda da uşaqlara xüsusi qayğı göstərilir və bütün bunlar ondan ötəridir ki, uşaqlarımız zəruri biliklərə yiyələnsin, ailə, cəmiyyət, dövlət qarşısında hüquq və vəzifələrini dərk etsinlər.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aytən Məmmədova çıxışında qeyd edib ki, muxtar respublikada uşaqların hər biri dövlətimizin böyük qayğısı ilə əhatə olunub. Son 20 ildən artıq dövr ərzində 215 ümumtəhsil məktəbi, 19 məktəbəqədər təhsil müəssisəsi, 7 orta ixtisas və peşə məktəbləri, 26 uşaq musiqi məktəbi tikilərək və ya yenidən qurularaq istifadəyə verilib, maddi-texniki baza gücləndirilib, yeni nəslin yüksək bilik və bacarığa sahib olmasına yönəldilmiş dövlət siyasətinin ardıcıllığı və məqsədyönlülüyü təmin edilib.

Aytən Məmmədova muxtar respublikada yaşayan sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası, onların təhsili və reabilitasiyası, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, aztəminatlı ailələrdən olan uşaqlar, onların asudə vaxtlarının səmərəli təşkil olunması üçün görülən işləri də qeyd edib, uşaqları qarşıdan gələn bayram münasibətilə təbrik edib.

Sonra 2017-2018-ci tədris ilində Kəngərli rayonu üzrə təhsil, incəsənət, idman sahələrində fərqlənən şagirdlərə fəxri fərmanlar və hədiyyələr təqdim olunub.

Tədbir konsert proqramı ilə davam edib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# *“Bioloji təbabətin aktual problemləri”* mövzusunda elmi-praktik seminar



***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi, Bakı şəhərində fəaliyyət göstərən “Bioloji təbabət” klinikası, Bioloji Təbabət və Antihomotoksik Terapiya Cəmiyyətinin təşkilatçılığı ilə Akademik Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında “Bioloji təbabətin aktual problemləri” mövzusunda elmi-praktik seminar keçirilib.***

Tədbiri Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsinin baş məsləhətçi-pediatrı, Azərbaycan Respublikasının Əməkdar həkimi İbrahim Ağayev açıb. O bildirib ki, səhiyyə sisteminin günün tələblərinə uyğunlaşdırılması, müasir tibb infrastrukturunun yaradılması muxtar respublikada həyata keçirilən sosial islahatların tərkib hissəsidir. Bunun nəticəsidir ki, istər Naxçıvan şəhərində, istərsə də ən ucqar dağ kəndlərində əhaliyə nümunəvi tibbi xidmət göstərilir. Tibb müəssisələri üçün yeni binalar tikilir, səhiyyə ocaqları müasir avadanlıqlarla təchiz edilir. Həmçinin həkimlərin peşə vərdişlərinin artırılması məqsədilə seminar və konfransların keçirilməsi diqqət mərkəzində saxlanılır. Keçirilən növbəti seminar da həmin tədbirlərin davamıdır.

“Bioloji təbabət” klinikasının meneceri Ramin İbrahimli, Bioloji Təbabət və Antihomotoksik Terapiya Cəmiyyətinin prezidenti, biotənzimləyici üzrə ekspert, tibb üzrə elmlər doktoru, professor Fikriyyə İbrahimova çıxış edərək müasir səhiyyə sistemində bioloji təbabətin getdikcə artan rolundan danışıblar. Bildirilib ki, 2009-cu ildən fəaliyyət göstərən “Bioloji təbabət” klinikası ölkəmizdə bioloji üsullarla müalicənin tətbiqini qarşısına məqsəd qoyub. Bioloji təbabət orqanizmin özünüidarə və müdafiə sistemlərinin pozulmuş funksiyalarını bərpa edən, baş verən həmin xəstəliklərin səbəblərinin aradan qaldırılmasına yönəldilən müasir müalicə metodudur. Bu müalicədə yalnız təbii tərkibli dərman preparatlarından istifadə olunur, müalicə zamanı digər orqan və sistemlər zədələnmir.

Sonra tədbir iştirakçıları professor Fikriyyə İbrahimovanın “Nevral terapiya” mövzusunda mühazirəsini dinləyiblər. Tədbirdə dinləyicilərin sualları cavablandırılıb, onlara bukletlər paylanıb.

Elmi-praktik seminar bu gün professor Fikriyyə İbrahimovanın “Mikrobiologiya oksidativ stress” mövzusunda mühazirəsi ilə davam etdiriləcək.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Naxçıvan şəhərindəki Gənclər Mərkəzində Naxçıvan Dövlət və “Naxçıvan” universitetləri, Müəllimlər İnstitutu, Naxçıvan Tibb və Dövlət Texniki kollecləri tələbələrinin iştirakı ilə maarifləndirici tədbir keçirilib.***

# *“Gənclərin aktivliyinə psixoloji dəstək”* adlı təlim olub



“Natiqlik və ünsiyyət” mövzusunda keçirilən tədbiri Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun təşkilatçılığı ilə keçirilən tədbiri fondun icraçı direktoru Anar Babayev açıb.

Tədbirdə çıxış edən “Naxçıvan” Universitetinin əməkdaşı Nicat Yaqubov həyatımızın vacib tələbatı olan ünsiyyət və natiqliyin əhəmiyyətindən danışıb. O bildirib ki, ünsiyyət zərurətdən yaranır. Ona tələbat çox zaman məqsəd, fikir, fəaliyyət, üst-üstə düşən mənafe birliyindən irəli gəlir. Ünsiyyət prosesi yeniyetməlik və gənclik dövrlərində həyatın ən önəmli məqamlarından birini təşkil edir. Çünki bu zaman insan daha fəal şəkildə ünsiyyətə can atır və bir şəxsiyyət kimi inkişaf etmək, formalaşmaq üçün informasiya mübadiləsi aparmaqla məlumatın ötürülməsi və qəbul edilməsində tərəf kimi çıxış edir. Ünsiyyət insanın dolayısı ilə özünü ifadə etməyə, aktuallaşdırmağa çalışmasıdır. Bu səbəbdən də ünsiyyət prosesi cəmiyyətdəki mövqeyimizi təyin edən ən mühüm faktordur. İnsanlarla ünsiyyət zamanı öz dilindən yüksək səviyyədə istifadə etmək onun dərin biliyə, hərtərəfli məlumata sahib olması ilə yanaşı, natiqlik bacarığından da xəbər verir. Bu isə inkişafımızın ümumi ahəngi ilə bağlı olduğu üçün müasir dövrdə daha böyük maraq doğurur.

Qeyd olunub ki, çağdaş dövr insanların bütünlükdə yüksək nitq mədəniyyətinə yiyələnməsini tələb edir. Ona görə də hər bir şəxs bu gün daim öz nitqinin zənginliyi və gözəlliyinin qeydinə qalmalı, onun davranışı ilə yanaşı, nitqi də müasir dövrün, inkişaf etmiş cəmiyyətin tələblərinə uyğun olmalıdır.

Diskussiya şəraitində keçən tədbirdə gəncləri maraqlandıran suallar cavablandırılıb, fəallıqları ilə seçilən gənclər diplomlarla mükafatlandırılıblar.

Qeyd edək ki, “Gənclərin aktivliyinə psixoloji dəstək” adlı mövzusu gənclərin iştirakı ilə mayın 25-də keçirilib. Təlimin digər mövzusu isə “Natiqlik və ünsiyyət”lə bağlı olub.

**Gülcamal TAHİROVA**

## Beynəlxalq rəsm festivalının iştirakçıları

*Naxçıvan haqqında çoxsaylı paylaşımlar ediblər*



Ötən həftə keçirilən “Naxçıvan – başəriyyətin beşiyi” IV Beynəlxalq Rəsm Festivalı burada yaradılan bir-birindən dəyərli əsərlərlə yadda qaldı. Qədim diyarın tarixi, müasir həyatı, mədəniyyəti, habelə Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı olması bu əsərlərin əsas məğzini təşkil edirdi.

Festivala dəvət almış rəssamların Naxçıvanın gəzməli və görməli yerləri ilə tanışlığı onlarda böyük maraq doğurub. Bunu həmin sənət adamlarının öz vətənlərinə geri qayıtdıqdan sonra sosial şəbəkələrdə etdikləri paylaşımlarda da görmək mümkündür. Bu paylaşımlarda Naxçıvanın maraqlı yerləri ilə tanışlıqdan alınan təəssüratların nə qədər dolğun olduğu aydın anlaşılır.

Türkiyəli rəssam Nülufər İnaltongun “Facebook” sosial şəbəkə hesabında onların festival müddətində Naxçıvanqalada, Bəhruz Kəngərli adına Rəssamlar Parkında, Bəhruz Kəngərli Muzeyində, Xalça Muzeyində, müqəddəs Əshabi-Kəhf ziyarətgahında, Naxçıvan Dövlət Tarix Muzeyində, habelə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Sərgi Salonunda və Əcəmi seyrəngahında olduqları zaman çəkdiyi fotoşəkillər paylaşılıb.

Başqırdıstanlı rəssam Diana Arslanova isə Heydər Əliyev Muzeyi, Əshabi-Kəhf ziyarətgahı, Naxçıvanqala, Möminə xatın türbəsi, Əcəmi seyrəngahı, Bəhruz Kəngərli adına Rəssamlar Parkı və Xalça Muzeyi haqqında paylaşımlar edib.

Polşalı rəssam Yekaterina Zyzakın paylaşımı daha maraqlıdır. Belə ki, o, Qarabağlar türbəsinin fotoşəklini paylaşmaqla bərabər, onu həm də öz profili üçün örtük şəkli kimi də istifadə edib.

Festivalda iştirak etmiş digər bir sənət ustası, dağıstanlı rəssam Patimat Guseynova Qarabağlar türbəsi, Möminə xatın, Xalça Muzeyi və Naxçıvanqaladakı təəssüratlarını çoxsaylı dostları ilə paylaşıb.

Gürcüstanlı rəssamlar Lela Geleişvili, Lia Şvelidze və Ketevan Basilaşvilinin paylaşımları isə fotoşəkillərin sayı və məzmununa görə də maraq doğurur. Belə ki, bu üç rəssam, ümumilikdə, 250-yə yaxın fotoşəkil paylaşmaqla, əsasən, Naxçıvanın görməli yerləri haqqında öz dostlarında geniş təəssürat yarada biliblər.

Bu paylaşımlardan göründüyü kimi, Naxçıvan qədim diyara səfər edən insanlarda həm təbiəti, həm mədəni inkişaf səviyyəsi, həm də tarixi zənginlikləri ilə böyük maraq doğurur.

✍ **Əli CABBAROV**

## İstedadlı şagirdin solo konserti olub



Mayın 29-da “Gənclik” Mərkəzində Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbinin fortepiano ixtisası üzrə VII sinif şagirdi Fidan Novruzovanın solo konserti olub. Konsert Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilib.

Konsertin aparıcısı bildirib ki, Fidan Novruzova 2003-cü ildə Naxçıvan şəhərində anadan olub. Hazırda Naxçıvan Qızlar Liseyinin 9-cu sinfində təhsil alır. 2011-ci ildə Naxçıvan Şəhər 2 nömrəli Uşaq Musiqi Məktəbinin Fortepiano ixtisası üzrə 1-ci sinfinə daxil olan Fidan muxtar respublikada keçirilən müsabiqələrdə müxtəlif nominasiyalar üzə mükafatlara layiq görülüb.

Konsertdə Fidan Novruzovanın dünya musiqisinin böyük korifeylərinin, Azərbaycan bəstəkarlarının, Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbinin skripkaçalanlar və instrumental ansamblları ilə birlikdə ifa etdiyi musiqi əsərləri maraqla qarşılanıb. Konsert görkəmli bəstəkar və pianoçu Fərhad Bədəlbəylinin “Dəniz” əsərinin ifası ilə başa çatıb. Bu əsər ümummilli lider Heydər Əliyevin zəngin həyat yolunu əks etdirən fraqmentlərin səhnədə canlandırılması ilə müşayiət edilib.

Konsert müəllim və şagirdlərdə xoş ovqat yaradıb.

Konsertdən sonra Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova gənclərə göstərilən qayğıdan danışıb, istedadlı şagirdi, onun müəllimlərini təbrik edərək onlara təhsildə uğurlar arzulayıb.

**Əli RZAYEV**

## “Heydər Əliyev kuboku” uğrunda kikboksinq üzrə turnirə start verilib



***Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş “Heydər Əliyev kuboku” uğrunda kikboksinq üzrə uşaq, yeniyetmə və gənclər arasında Naxçıvan Muxtar Respublika turnirinə start verilib.***

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən turnirdə idmançılar müəyyən edilmiş yaş və çəki dərəcələrində rinqə çıxıblar. Belə ki, reqlamentə əsasən, 8-12 yaşa qədər kadetlər 25, 30, 35, 40 və 45+ kiloqram çəki dərəcələrində mübarizə aparırlar. 12-15 yaşlı uşaq idmançılar isə 45 və 51 kiloqram çəki dərəcələrində kimin güclü olduğunu sübut etməyə çalışırlar. 45 və 57 kiloqram çəki dərəcələrində 15-17 yaşlı yeniyetmə idmançılar rinqə çıxıb. Gənclərin mübarizəsində isə 60, 65 və 71 kiloqram çəki dərəcəsindəki idmançılar qalibi müəyyənləşdirməyə çalışırlar.

Turnirdə, həmçinin 25 kiloqram çəki dərəcəsində qız idmançılar da mübarizə aparırlar.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Kikboksinq Federasiyasının birgə təşkil etdiyi turnirdə 80-ə yaxın idmançı mübarizə aparır və bu gün final görüşləri keçiriləcək.

## Ağır atletlərimizdən yeni rekord

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində Şərur rayonunda fəaliyyət göstərən ağır atletika bölməsinin yetirmələri Azərbaycan çempionatında iştirak ediblər.*





İdmançılarımız yenə də qazandıqları uğurlarla ölkəmizin idman ictimaiyyətinin diqqətini cəlb etməyi bacarıblar. Belə ki, ilk dəfə olaraq bölmənin qız idmançısı Gülcahan Əliyeva ölkə birinciliyində mübarizə aparıb. İdmançımız 47 kiloqram çəki dərəcəsində körpücük üzərinə çıxıb. O, birbaşa qaldırmada 29 kiloqramın öhdəsindən gəlib. Təkanla qaldırmada isə 42 kiloqramı başı üzərinə qaldırıb. Ümumi nəticəyə əsasən ağır atletimiz ölkə çempionatında dördüncü yeri tutub. Qeyd edək ki, bu Gülcahan Əliyevanın ilk rəsmi yarışıdır.

Tərmenxan Babayev isə yenidən ölkənin ən güclü atleti olduğunu sübut edib. Belə ki, 85 kiloqram çəki dərəcəsində çıxış edən idmançımız öz rekordunu da 17 kiloqram yeniləyib. Yeniyetmələr arasında mübarizə aparan ağır atletimiz birdəfəyə 137 kiloqram, təkanla qaldırmada isə 170 kiloqramın öhdəsindən səhvsiz gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Sonda qalib idmançılar mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

**Yurdumuzun nemətləri**

## Doğma diyarımız nadir bitkilərlə zəngindir

***Qədim diyarımız günü-gündən abadlaşan, müasirləşən kəndləri, nadir bitkilər bitirən dağları, güllü-çiçəkli, yamyaşıl bağları, çöl-çəmənlərindəki müxtəlif dərman otları ilə məşhurdur. Min bir dərdin dərmanı, məlhəmi olan bitkilər içərisində ələyəz, əvəlik, yemlik, turşəng, quzuqulağı, çiriş, cacıq, baldırğan, çaşır, əməköməci, qazayağı, rəvənd, dağ kəvəri, yarpız, nanə, kəklikotu və adlarını saymaqla bitməyən, dad-tamı, ləzzəti, keyfiyyəti ilə seçilən bu bitkilərdən insanlar yaz ayları boyunca yararlanır, hətta qış üçün də tədarük edirlər.***

Ana təbiətin mineral gübrəsiz, dava-dərmansız yetirib-bitirdiyi, insan sağlamlığı üçün möcüzəvi faydaları olan bitkilərdən hazırlanan müxtəlif çeşiddə yemək nümunələri mətbəx mədəniyyətimizi zənginləşdirməklə yanaşı, uzunömürlülüyün sirrini də özündə qoruyub saxlayır. Narın yaz yağışlarının, səhər şehinin yuyub tər-təmiz etdiyi bu bitkilərin əksəriyyəti təzə-tər halda, bəziləri qurudulmaqla, çoxu duzaturşuya qoyulmaqla ilboyu süfrələrimizin bəzəyi olur.

Hələ bu harasıdır, təmiz havasını ciyərlərimizə çəkdiyimiz dağlarımızda, məşhur yaylaqlarımızda bitən kəklikotu, solmazçiçək, yarpız, ətirsünbül, dağ nanəsi, çobanyastığı, boymadərən, batrınc, qantəpər kimi bitkilərin dəmləmələri – gümrahlıq və xoş əhval-ruhiyyə yaradan təbii çaylarımız sağlamlıq və enerji mənbəyidir. Pişikquyruğu, südləyən otu, çaytikanı, gülxətmi, dağ nanəsi, zirinc, yemişan, sumaq, nərbənd, pişpişə, yulğun, ardıc və digər onlarla bitki muxtar respublikamızın dağlarının müalicəvi əhəmiyyətə malik şəfa vasitələridir.

Belə bitkilərdən biri olan baldırğan muxtar respublikamızın nadir bitkilər siyahısına daxildir. Çoxillik ot bitkisi olan baldırğanın muxtar respublikamızda iki növü yayılıb. Bu nadir növlər Ordubad, Culfa, Şahbuz və Şərur rayonlarında, xüsusilə dağ çəmənliklərində bitir. Uca gövdəsi qamışvarı formada, içərisi boş boruyabənzər şəkildə olan bitkinin yarpaqları boz-yaşılımtıl iri və sadə ləłəkvaridir. Hər bir dərdin dərmanı olan çiçəkləri isə ağsarımtıl-yaşılımtıl rəngdə olmaqla, külək və qanadlı həşəratlar vasitəsilə tozlanır. Baldırğanın əsas hissəsi cavan zoğlarıdır ki, tərkibində bir çox vitamin, şəkər və efir yağlarını birləşdirir. Bu bitkinin tərkibi elmi şəkildə tam öyrənilməsə də, bir çox növləri həvəslə yeyilir, o həm də onurğalı heyvanların qidalandıqları yem bitkisidir. Şahbuz rayonu sakinlərinin dediklərinə görə, Salvartı yaylağında bitən baldırğan növü bəzək bitkisi kimi, Kükü kəndində – Keçəldağ yamacları ətrafında yayılmış növü isə sənaye əhəmiyyətlidir.

Xalq təbabətində baldırğan bitkisindən bir çox xəstəliklərin müalicəsi üçün istifadə olunur. Bunun üçün bitkinin, əsasən, yarpaq, kök və toxumları toplanılır, dəmləməsi ilə daxili xəstəliklərin iltihabında istifadə edilir. Ürəkkeçmələrdə, astma xəstəliklərinin müalicəsində çox faydalı olan bu bitkinin kök hissəsindən alınan dərman qaraciyər və sarılıq xəstəlikləri zamanı işlədilir. Təzə toplanmış bitkinin çiçəklərinin dəmləməsi isə qastrit, həmçinin həzm sisteminin pozulması, qan təzyiqi, ürək-damar xəstəlikləri zamanı effektiv təsir göstərir.

Baldırğan məişətdə də çox istifadə olunan bitkilərdən biridir. Belə ki, onun həm turşusu qoyulur, həm də mürəbbəsi bişirilir. Bu bitkidən müxtəlif qida məhsullarının hazırlanmasında da geniş istifadə edilir. Baldırğan yaz aylarında yığılıb duza qoyularaq konservləşdirilir. Duza qoyulmuş baldırğan da digər bitkilər kimi vitaminləri özündə saxlayaraq milli yeməklərlə bərabər süfrəyə gətirilir.



Ordubad rayonunun Üstüpü kənd sakini, 75 yaşlı Eyvaz Babayev deyir ki, baldırğan aran zonasında bəzi həyətlərdə becərilsə də, əsasən, dağlıq zonada bulaq və çayların kənarlarında bitir. Bizim kəvşən dediyimiz yerlərdə, su gələn arxların qıraqlarında, çay kənarlarında bu bitkiyə daha çox rast gəlinir. Çiçəkləri və yarpaqlarının özəkləri toplanır. Özünəməxsus xoş ətri ilə seçilən baldırğanı həm uşaqlar, həm də böyüklər çiy halda qabığını soyub yeməyi çox sevirlər.

O deyir ki, baldırğan çiçəyinin faydasını görənlərdən biri də mənəm. 2003-cü ildə qaraciyərim bərk ağrımağa və getdikcə əziyyət verməyə başladı. Haraya üz tutdumsa, xeyri olmadı. Çox dilxor oldum. Bəs çarəsi nə olacaq? – deyə düşündüm. Kəndimizin yaşlı qadınlarından biri mənə dedi ki, baldırğan çiçəyi dəmlə, iç. İki ay deyilən kimi etdim. Günbəgün vəziyyətim yaxşılaşdı. Xəstəlikdən əsər-əlamət qalmadı. Şükür Allaha, hələ də ağrı-acısız yaşayıram.

Eyvaz dayının xanımı da söhbətimizə qoşularaq bildirdi ki, baldırğan qiymətli qida məhsulu kimi süfrələrimizin bəzəyidir. O qeyd etdi ki, həmin bitkinin zoğlarını təzə vaxtı yığır, duzlu suda turşuya qoyur, qış üçün tədarükümüzü görür, bazara da çıxarırıq. Hətta onun mürəbbəsini də bişiririk. Evimizə gələn qonaqlar üçün süfrəyə gətirdiyimiz dadlı-ləzzətli baldırğan mürəbbəsini çox bəyənir, hətta reseptini də soruşurlar.

Muxtar respublikamız baldırğan kimi yüzlərlə sağlamlığımızı bərpa edən bitkilərlə zəngindir. Bizim də borcumuz təbiətimizi mühafizə etməklə cəmiyyətin qiymətli sərvətlərindən biri olan bitkilərimizi qorumaqdır.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

***İtmişdir***

Türkiyə vətəndaşı Şeker Oğuz Ertanın adına Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 394